**Bəxtiyar Vahabzadə**

***

Halqa-halqa burulur başların üzərində
Tüstülər ağ şər kimi.
İri külqabıların kənarına düzülmüş
Papiros kötükləri,
Sönən duyğular kimi.

Bu siqar kötükləri,—
Hədəfinə dəyməyən arzu, niyyət oxları.
Ömürdən qopub düşən düşüncə qırıqları.
Papiros kötükləri—
Neçə arzu, necə qəm.
Külqabıda zoğları, ürəklərdə kökləri.
Papiros atəşində ürəyini söndürüb
Ümidini yandıran,
Fikrində, xəyalında
Qəzəbini yatırıb, bəxtini oyandıran
Adamlar ayaq üstə durub siqar çəkir.
Tüstü burumlarında halqalanıb dağılır
Əlvan-əlvan fikirlər.
Adamlar gözlərini bir nöqtəyə dikirlər.
Bu nöqtənin adı nə?
Hansı bir qıfılınsa xəyaldakı açarı.
Hansı bir duyğununsa keçilməyən hasarı.
Bir fikirdə yüz tərə, hər təpədə yüz dərə.
Fikir gedir min yerə.
Adamlar heykəl-heykəl.
Ad vermək istəyirəm bu donmuş heykəllərə:
Bu – "fikir",
O - "axtarış"
Bu – "arzu"
O – "məhəbbət"
Bu – " atılmış", o – "həsrət".
Onlar sükut içində danışır, aşıb-daşıb.
Danışmağa
İmkanı olmayanla danışır.

Onların qulağına gəlir
Arzularının
Dodağıyla danışan
Gözəl-gözəl xəbərlər.
Bu nöqtədə dağılır, çərçivələr, çəpərlər.

---

Veb direktor: Betti Bleyer
Mətni yığdı: Nərgiz Abadi
Veb üçün hazırladı: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: yanvar, 2004